## Prezident mükafatçısı:

# Dedim ki, Qarabağa döyüşməyə gedirəm, ölməyə yox!

Dövlət başçısı İlham Əliyev 2 fevral 2021-ci il tarixində 2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 nəfər Gənclər üçün Prezident mükafatlarına layiq görülüb. Mədəniyyət nominasiyası üzrə mükafatçılar sırasında "Bolşoy Teatr"ın Gənc opera proqramının artisti, tenor Ataş İbrahim oğlu Qarayev də yer alıb.







**"İki sahil" mükafatçılardan biri olan Ataş Qarayevlə müsahibəni təqdim edir:**

***- Söhbətimizə ilk olaraq Ataş Qarayevi daha yaxından tanımaqla başlayaq... Özünüzü oxucularımızla daha yaxından tanış edərdiniz.***

- Mən, 1993-cü ilin 10 avqustunda Bakı şəhərində anadan olmuşam. 1999-cu ildə Nizami rayonunda yerləşən 10 nömrəli orta məktəbin 1-ci sinfinə daxil olaraq 2008-ci ildə 9-cu sinfi bitirib, Şuşa Musiqi Kollecinə qəbul olmuşam. 2008-2012-ci illərdə Şuşa Musiqi Kollecində oxumuşam. 2012-2014-cü illərdə həqiqi hərbi xidmətdə oldum. 2014-cü ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Solo oxuma fakültəsinə daxil olmuşam. 2018-ci ildə oranı bitirmişəm. 2015-ci ildə Sankt-Peterburqda keçirilən opera ifaçılarının 7-ci beynəlxalq müsabiqəsinin diplomantı adına layiq görülmüşəm. 2017-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyi və Musiqili Teatr tərəfindən "Mövsümün debütü" diplomu ilə təltif olunmuşam. 2015-2017-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəvətli solisti kimi çalışmışam. 2017-2019-cu illərdə Azərbaycan Dövlət Akademik Musiqili teatrının aparıcı solisti kimi işləmişəm və Rusiyanın "Bolşoy Teatrı"nın Gənclər truppasında iş təklifi aldığım üçün öz xahişim ilə işdən ayrıldım. 2019-cu ildə Rusiya "Bolşoy Teatrı"nın Gənclər truppasının ilk azərbaycanlı solisti oldum. Beynəlxalq Muğam Mərkəzi, Bakı Musiqi Akademiyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tərəfdaşlığı ilə Üzeyir Hacıbəylinin anadan olmasının 132 illiyi və Milli Musiqi Günü münasibətilə keçirilən "Canlı xatirə" adlı konsertdə uğurlu çıxışıma görə "Təşəkkürnamə" ilə təltif edilmişəm. 2018-ci ildə Moskvada Yelena Obraztsova Fondu tərəfindən təşkil olunan "Xose Karreras Qran-pri" tenorlar müsabiqəsində iştirak etdim və finala yüksəldim. Xalqımıza şanlı Qələbə sevinci yaşadan 44 günlük Vətən müharibəsində könüllü olaraq iştirak etdim.

***- Ataş, Prezidentin mükafatına layiq görüldüyünüzü eşidəndə hansı hissləri keçirdiniz? Duyğularınızı bizimlə bölüşmənizi istərdik...***

-Prezident mükafatçısı olduğumu eşidəndə hədsiz dərəcədə sevindim. Sevincimin həddi-hüdudu yox idi. Hətta deyərdim ki, bu, mənim həyatımın ən sevincli xəbəri idi. Dövlət başçımız, Ali Baş Komandanımız cənab İlham Əliyev daim biz gənclərə dəstək verib və etimad göstərib. Mən çox qürurlu və sevincliyəm ki, Prezidentimiz məni də bu mükafata layiq görüb.

***- Sizcə, gənclərimiz dövlətimizin və Prezidentimizin etimadını doğrulda bilirmi?***

- Əlbəttə ki, doğruldur. Bu gün dövlətin diqqət və qayğısı Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özünü təsdiq etməsinə, tanınmasına münbit şərait yaradır. Gənclər olaraq, hər zaman Azərbaycanı istər yerli, istərsə də beynəlxalq sferada layiqincə təmsil etməyə çalışmışıq. Vətən müharibəsində gənclərimiz həm ön, həm də arxa cəbhədə qəhrəmanlıq göstərdilər. Bu qələbə xalqın Ali Baş Komandanımız və Ordumuzla birlik olmasının bariz nümunəsidir. Hazırda istedadlı gənclərimizin sorağı yaxın-uzaq ölkələrdən gəlir. Onlar ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edirlər. Bizim xalqımız çox istedadlı və zəhmətkeş xalqdır. Mənim çoxlu gənc dostlarım var ki, hazırda dövlətimizin adını öz uğurları ilə xaricdə ucaldırlar. Məsələn, opera ifaçıları Azər Rzazadə, Məhərrəm Hüseynov. Onlar dünyaca məşhur La Skala Teatrının akademiyasını bitirib



ölkəmizi həm La Skalada, həm də dünyanın ən öndə gedən opera teatrlarında təmsil edirlər. Opera ifaçımız Həmid Abdulov Rusiyanın Marinski Teatrının solistidir, skripka ifaçımız Emin Hüseynov isə Moskva Konservatoriyasının magistraturasında təhsilini davam etdirir və ölkəmizi öz sənəti ilə Rusiyada çoxsaylı konsert və tədbirlərdə təmsil edir. İstedadlı gənclərimiz həqiqətən çoxdur, saymaqla bitməz.

***- Qeyd etdiniz ki, İkinci Qarabağ müharibəsinin iştirakçısı olmusunuz...***

- Bəli, Vətən müharibəsində iştirak etmişəm. Bizim tabor 1-ci eşalonda ən öndə döyüşənlərdən idi. Biz hazırlıq kursu keçdik, sonra isə bizi Füzuli istiqamətinə göndərdilər. Hər birimiz döyüşə can atırdıq, çünki hər birimiz üçün torpaqlarımızı düşmən işğalından azad etmək şərəf məsələsi idi. Cəbrayıl, Hadrut, Xocavənd istiqamətindəki döyüşlərdə oldum. Biz qələbəmizə inanırdıq, ona görə dayanmadan irəli gedirdik, hər şeyə hazır idik. Anlayırdıq ki, geriyə yol yoxdur. Azərbaycan əsgərləri ölüm haqda fikirləşmirdi, əsas qələbəyə doğru getmək, torpaqlarımızı işğaldan azad etmək idi. Döyüş zamanı mənimlə eyni istiqamətdə, eyni hərbi hissənin tərkibində döyüşən dayıoğlum Natiq Əhmədov şəhid oldu. O, məndən 4 yaş kiçik idi. Hələ çox gənc idi. Buna baxmayaraq, çox cəsarətli və mərd idi. Mənim üçün döyüşlərin ağır tərəfi döyüş yoldaşlarımı, qardaşlarımı itirmək idi. Ordumuz çox güclü və yüksək döyüş ruhunda idi. Allahın izni ilə, biz mənfur düşməndən öz qisasımızı aldıq. Gözəl Qarabağımızı düşmən tapdağından azad etdik.

***- Müharibə xatirələrinizi bizimlə bölüşərdiniz.***

- Füzulidən Şuşa dağlarına kimi piyada getdik. Şuşaya dörd kilometr qalmışdı. Ora kimi yolumuz 10 gün çəkmişdi. Sonra bizə dedilər ki, xüsusi təyinatlılarımız unikal əməliyyat keçirərək Şuşanı düşməndən azad ediblər. Bu, bizim üçün ən sevindirici xəbər oldu. O hissləri sözlə ifadə etmək çətindir. Ermənistanın kapitulyasiya sənədini imzaladığı xəbərini alanda sevincimiz ikiqat oldu, bu, rəsmi olaraq Azərbaycanın Vətən müharibəsində Qələbəsi demək idi. 44 günlük müharibədə döyüş yoldaşlarımın əhvalını yüksəltmək üçün mahnılar oxuyurdum. Mənim üçün daha çox valideynlərim narahat olurdular. Onlara həmişə deyirdim ki, gec-tez Qarabağda müharibə yenə başlayacaq və mən cəbhəyə gedəcəyəm. Bu, mənim arzum idi. Valideynlərim mənim vətəndaş mövqeyimi, qərarımı bilirdilər və mənəvi cəhətdən buna hazır idilər. Evdən çıxanda görüşmədim, dedim ki, Qarabağa döyüşməyə gedirəm, ölməyə yox! Bilirdim ki, öz torpaqlarımızı azad etməyə gedirəm. Azərbaycan üçün vacib olan belə tarixi hadisənin iştirakçısı olduğum üçün xoşbəxtəm.

***- Tarixi Zəfərimizin qazanılmasını şərtləndirən əsas amillər hansı idi?***

-Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində iqtisadi inkişafa, siyasi nüfuza, güclü, müasir orduya, yüksək texnologiyalara malik bir ölkəyik. Bu siyasətin nəticəsidir ki, Azərbaycan Ordusu işğalçı erməniləri darmadağın edərək onları Qarabağdan iti qovan kimi qovdu.

***- Ataş, gələcək hədəflərinizdən bəhs edək...***

- Məqsədim hər zaman dövlətim və millətim üçün layiqli vətəndaş olmaq, millətimizi, dövlətimizi, mədəniyyətimizi dünyada layiqincə təmsil etmək və tanıtmaqdır.

***- Sonda, gənclərimizə tövsiyələrinizi bilmək istərdik.***

-Məncə uğurlu gənc olmağın bir yolu var - yalnız öz üzərində işləmək, inkişaf etmək. Asan sənət yoxdur, hər sənətin öz çətinliyi var. Gənclərimizə tövsiyəm odur ki, heç vaxt ruhdan düşməsinlər. Hər zaman öz üzərilərində çalışsınlar. Belə olduqda, uğur daim onlara nəsib olacaq.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***